мая 30 -1831 г. июня и // Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Ч.I. – М.-Л., 1936, сс.208-223
11.Сумбатзаде А.С. Присоединения Азербайджана на к России. – Б., 1955
12.Его же. Кубинское восстание 1937 г. – Б., 1961
13.Его же.-Социально-экономические предпосылки победи советской власти в Азербайджане. – М., 1972
14.Его же. Азербайджанская историография XIX-XX вв. – Б., 1987
15.Вердиева Х.Ю. Население Северного Азербайджана в I половине XIX века. -Б., 1995
16.Ее же. -Переселенческая политика Российской и империи в Северном Азербайджане в XIX – нач. XX вв. – Б., 2006

## О НЕКОТОРЫХ МОМЕНТАХ КОЛОНИАЛЬНОЙ ПОЛИТИКИ ЦАРСКИХ ВЛАСТЕЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (20-30-Е ГГ. XIX В.)

***Гасанов Гаджи Нуру оглы***

***Резюме***

В настоящей статье рассматриваются некоторые моменты антироссийского Кубинского восстании 1826 г. Приведенные материалы позволяют раскрыть некоторые особенности колониальной политики царизма в Северном Азербайджане в I трети XIX века.

## THE CHIEF OF DEPARTMENT “HISTORY OF NORTHERN AZERBAIJAN OF THE 19TH-EARLY 20TH CENTURIES” OF INSTITUTE OF HISTORY NAMED AFTER A.A.BAKIKHANOV

***Hasanov Haci Nuru***

***Summary***

The given paper discusses some aspects of the anti-Russian Cuban uprising of 1826. The presented materials allow revealing some features of the colonial policy of tsarism in Northern Azerbaijan in the first third of the 19th century.

# XX ƏSRDƏ NADIR VƏ QIYMƏTLI KITABLARIN ELEKTRON KATALOQUNUN YARADILMASI PROSESI

***Gülalıyev Elçin Gülaməddin oğlu***
***elchin.gulaliyev1@gmail.com***

**Xülasə**: *XX əsrin 50-ci illərindən etibarən dünya miqyasında inkişaf etməyə başlamış texnika və texnologiyaların inkişaf səviyyəsi, beynəlxalq və kütləvi xarakter daşımışdır. Sözsüz, texniki və texnoloji nailiyyətlər arasında kitabxana məkanının elektronlaşdırılması mühüm yer tutur. XX əsrdə elektron kitabxananın yaradılması layihələri arasında müəllifləri bir sıra Avropa ölkələri olan layihə və proqramlar da var idi. XX əsrin 60-cı illərindən başlayaraq bu layihələr əsasında maşın formatında biblioqrafik tərtibatın avtomatlaşdırılmış sistemləri yaradılmışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, rəqəmsal kitabxanaların yaradılması yolu beynəlxalq təcrübəyə əsaslanan fundamental elmi-nəzəri, metodoloji və praktiki amillərlə səciyyələnir.*

**Açar sözlər:** elektron kitabxana, kitabxana məkanının elektronlaşdırılması tarixi, kitabxana məkanının elektronlaşdırılması üzrə layihələr, biblioqrafik qeydiyyatın avtomatlaşdırılmış sistemləri, elmi-nəzəri amillər, metodoloji amillər, praktik amillər, nadir və qiymətli nəşrlər

**Ключевые слова:** электронная библиотека, история электронизация пространства библиотеки, проекты по электронизация пространства библиотеки, автоматизированные системы библиографического оформления, научно-теоретические факторы, методологические факторы, практические факторы, редкие и ценные публикации

**Key words:** electronic library, history of electronization of the library space, projects on electronization of the library space, automated systems of bibliographic design, scientific and theoretical factors, methodological factors, practical factors, rare and valuable publications

XX əsrin 50-ci illərindən etibarən dünya miqyasında inkişaf etməyə başlamış texnika və texnologiyaların inkişaf səviyyəsi, beynəlxalq və kütləvi xarakter daşımağa malik olmuşdur. Bu tarixi prosesin nəticəsi olaraq XX əsrin 90-cı illərindən başlayaraq isə informasiya cəmiyyəti formalaşdığı zamanlarda dünya mütəfəkkirlərinin gəldiyi qənaətə əsasən insanların informasiya əldə etdiyi əsas bilik mənbəyi olan kitabların qorunduğu kitabxanaların elektronlaşdırılması prioritet məsələlərdən biridir. Bu məqsədin reallaşması üçün qarşıda duran əsas vəzifə elektron kitabxanaların əsas sosial funksiyaları özündə əks etdirməsi və müasir dünya standartlarına uyğun mükəmməl nəzəri və təcrübi bazanın təminatının təşkilidir.

İnformasiya texnologiyalarının rəvac tapmasının əsas mənbəyi olan biliyin, savadın əldə edilməsinin vacib olması fikrini cəmiyyətə aşılayan dövlət başçısı, cənab prezident İlham Əliyev deyir: “Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbləri təbii ehtiyatlar deyil, və ya hansısa iqtisadi nəaliyyətlər deyil, məhz bilik və savad, yeni texnologiyalardır ki, məhz bu amillər ölkəyə uğur gətirir, inkişafa, müasirliyə səbəb olur”. [1, s. 90]

Elektron kitabxana terminindəki “kitabxana” anlayışı birbaşa mənasında istifadə olunmasa da onun da informasiya bazasını özəl və dövlət sektoruna aid olan nəşriyyatlar, arxiv idarələri, elmi-tədqiqat institutları təşkil edir.

Kitabxana-informasiya sahəsinin elektronlaşdırılmasını tarixi mərhələlər üzrə tədqiq etdiyimiz zaman bu istiqamətdə aparılan işlərin kompleks sistemi, inteqral sistem və şəbəkə sistemi səviyyəsində aparıldığını müşahidə edirik. XX əsrdə isə bu səviyyələrin üçü də ayrı-ayrılıqda inkişaf edərək müasir yüksək texnologiya ilə daha da güclənmişdir. Nəticə olaraq, elektron oxu zalları, elektron jurnallar, biblioqrafik məlumat bazaları, onlyn sistemlər yaradılaraq cəmiyyətin ixtiyarına təqdim edilmişdir.

Kitabxana sahəsinin elektronlaşdırılması əlbəttə ki, texniki-texnoloji nailiyyətlər içərisində mühüm yer tutur. Bu istiqamətdə ilk addım olaraq layihələr yaradılmağa başlanmışdır. Bu layihələrə nümunə olaraq, 80-ci illərin əvvəllərində tərtib edilmiş ABŞ-da işlənmiş DLİ (Digital Library İnterface) layihəsi nümunə göstərilə bilər. Layihə Berkli, Santa Barbara, Karneqi-Mellion, İllinoys, Miçiqan, Stanford, Hardvard və bir neçə digər universitetdə elektron kitabxana yaratmaq və vahid şəbəkədə əlaqələndirilmək mövzularını əhatə edir. Qeyd olunmalıdır ki, müasir dövrümüzdə DLİ layihəsi təcrübi olaraq reallaşdırılmışdır. Belə ki, məhz bu layihə əsasında elektron formatda ABŞ-ın bir neçə iri nəşriyyatı olan Pergamon, Elsevir, Computing Machinery, o cümlədən, kompüter texnologiyasına dair 28 adda jurnal nəşr edən Association for Computing Machinery (Hesablama maşınlarının şirkəti) adlı peşəkar cəmiyyət, NDL (National Digital Library) Konqres Kitabxanası formalaşdırılmışdır.

Digər layihəyə nümunə olaraq, 1990-cı illərin ortalarından etibarən Böyük Britaniyada tərtib olunan DL (Digital Library) elektron kitabxana proqramını nümunə gətirə bilərik. Layihə kitabxananın müxtəlif fondlarından və digər mənbələrdən seçilmiş ən vacib sənədlər əsasında elektron kitabxana xidmətini təşkil etməyi mərhələli şəkildə həyata keçirmək haqqındadır. Burada nadir kitablar, kitabxana işinə dair jurnallar, hərəkət

edən təsvirlər olan annimasiyalar, qədim mətnlər və onların əlyazmaları, patentlər və bir neçə digər sənəd növləri daxildir. Bu layihədə kitabxananın müxtəlif fondlarından seçilmiş vacib sənədlərin skanirovkası, CD-ROM, səs yazıları kimi elektron nəşrlərin komplektləşdirilməsi, dövrü mətbuata aid olan nəşrlərin qanuni mühafizə üsulları haqqında bəhs edilir.

Böyük Britaniyada tərtib edilmiş digər layihə ELİB (Electronics library) proqramıdır. Proqram Böyük Britaniya ali məktəb kitabxanalarının elektron nəşrlərə, sənədin elektron göndərişinə və şəbəkə resurslarına müraciətə dair 60 layihəni maliyyələşdirir. Layihə Britaniya Təhsil Departamenti tərəfindən icra edilmişdir.

Fransa Milli kitabxanasının yaratdığı "Callica" layihəsi isə uzaq məsafədən elektron sənədlər fonduna daxil olmaq imkanını reallaşdırmaq məqsədilə həyata keçirilmişdir. Layihə 30 milyon səhifə çap materialını elektron formaya keçirmək imkanı yaradır. Həmin layihənin bir qolu olaraq yaradılan "Classical Callica" adlı şəbəkə rejimində işləyən məlumat bazası isə 80 min musiqi və incəsənət əsərinin elektron variantını özündə ehtiva edir. Layihəyə eyni zamanda klassik fransız yazıçılarının əsərlərini mühafizə edən multimedia kitabxana proqramının reallaşdırılması üsulları da daxil edilmişdir.

Elektron kitabxananın yaradılması haqqında olan layihələr sırasında bir sıra Avropa ölkələrinin müəllifi olduğu layihə və proqramları da yer almışdır. Bunlara nümunə olaraq, Danimarka Elektron Elmi-Tədqiqat Kitabxanası (DEF), Finlandiya Milli Elektron Kitabxanasi (Finlib), Niderland Kral Kitabxanasının elektron fondu (MİM) adlı layihələrin adını çəkmək olar.

Sərhəd qonşumuz Rusiyada hazırlanan və hətta təcrübədə də tətbiq edilmiş layihələrə nümunə olaraq isə Rusiya Dövlət Məqsədli Elmi-Texniki Proqramı (Информатизации России), Ali məktəblər və elmlər üçün milli kompüter telekommunilasiya şəbəkələrinin yaradılması (Создание национальной сети компютерных телекоммуникаций для науки и высщей щколы), Rusiya elektron kitabxanaları (Межведомственная программа), Rusiya mədəniyyəti (2001-2050), (Культура России" (2001-2050)) adlı alt proqram layihələrini göstərmək olar. Layilərin içərisində Avropa Kommissyasına üzv kimi daxil olan xarici ölkələrin və həmçinin Rusiya Federasiyasının da əməkdaşlıq etdiyi Avropa məkanında avtomatlaşdırılmış kitabxanalarının nəzarətli müraciət şəbəkəsi olan CANDEL, Avropada əsərlərin elektron formada çatdırılması proqramı DECOMATE, Avropa elektron Dövrü nəşrləri sistemi DİEPER, Korlar üçün musiqi kataloqu olan MİRACLE layihələri də uğurlu işlər qrupuna daxil edilə bilər. Bu layihələrdən biri olan MİRACLE geniş istifadə dairəsi ilə digərlərindən fərqlənir. Belə ki, layihə Avropada korlar üçün multimedia elektron kitabxanası yaratmaq və Brayl şriftini rəqəm forması qismində musiqi əsərlərinin onlayn istifadəsinin təminatı məqsədilə tərtib edilmişdi. Adı çəkilən layihə Avropa ölkələrindən Böyük Britaniya, İsveçrə, İtaliya, İspaniyanın diqqətini cəlb etmişdir və onlar da bu layihənin iştirakçısına çevrilmişlər. Layihənin reallaşdırılması isə 2003-cü ilə təsadüf edir. [8, s. 102]

XX əsrin 60-ci illərində biblioqrafik yazılar üçün hazırlanan JSO 2709 maşın formatı bu istiqamətdə aparılan işlərin ilk avtomatlaşdırılmış nümunəsi kimi qiymətləndirilə bilər. 80-ci illərdə isə UNİMARC maşın formatı yaradılmışdır. Bu illərdə kitabxana kataloqlarının elektronlaşdırılması məqsədilə müvafiq sistem və tətbiqi zərflər də ixtira olunmağa başlandı. Yerli və beynəlxalq səviyyədə fəaliyyət göstərən elektron kataloqların yaradılması mərkəzləri məhz bu sahənin nailiyyətlərindən biri hesab olunur. Müasir dövrdə iri kitabxanaların bir qismində kartoçka kataloqları elektron kataloqlar ilə əvəz olunub. Bu kataloqların bir qismi onlayn rejimdə oxuculara xidmət edir.

Amerika Birləşmiş Ştatları elektron kataloqların yaradıldığı ilk ölkə kimi tarixə düşmüşdür. Bu da qeyd olunmalıdır ki, XX əsrin II yarısında ABŞ kitabxanalarındakı

kataloqlar hələ də əlifba sırası ilə tərtib olunurdu. Belə kataloqlarda axtarış kitabın başlığındakı birinci söz əsasında aparılırdı.

Dünya tarixində ilk dəfə olaraq amerikalı alim Çarlz Franklin Ketterinq lüğət kataloqu tərtib etmişdir. Alim müəllifi olduğu "Lüğət kataloqunun tərtibi qaydaları" monoqrafiyasında bu mövzu üzrə ətraflı tədqiqat işi təqdim edilmişdir.

ABŞ kitabxanalarında ilk dəfə 1960-cı ildə elektron kataloqların tətbiqinə start verildi. İlk addım kimi ABŞ Kitabxanalar Assosasiyası iki cilddən ibarət olan elektron kataloq tərtib etdi. Bu kataloqun təkmilləşdirilmiş ikinci nüsxəsi "Library of Congress Subject Headings-LCSH" (Qurultay mövzularının başlıqları kitabxanası) adlandırıldı.

1968-ci ildə İSO – "İnternational Organizxation for Standardization" (Beynəlxalq standartlaşdırma üzrə təşkilat) tərəfindən beynəlxalq standart kimi təsdiq edilən MARC "Machine - Readable Catalogue" (Oxunabilən kataloq-maşın) formatının istifadəsinə başlanmışdır. Sonrakı illərdə elektron kataloq layihəsinə Kanada və Böyük Britaniya kitabxanalarının da qoşulması nəticəsində MARC II formatı hazırlanmışdır. Daha sonralar isə hər bir ölkə öz loqosu əsasında proqram təminatı yaratmağa başlamışdır. Rusiyada tətbiq olunan RUSMARC, Kanadaya aid CANMARC formatları bunlara nümunədir. [10, s. 25]

Dünya ölkələrinin böyük qismi 1970-1980-cı illər aralığında MARC formatına üstünlük vermişdir. Həmin dövrdə MARC formatının 50-yə yaxın variantı mövcud idi. MARC formatının bu qədər çox variantının yaradılması yeni vasitəçi formatın yaranması ilə nəticələndi. Nəticədə dilimizə "Kitabxana Federasiyalarının Beynəlxalq Assosiasiyası" kimi tərcümə olunan İFLA – "İnternational Federations Library Association" beynəlxalq formatı ixtira olundu. Bu formatı yaratmaqda məqsəd axtarılan kitabiyyatın beynəlxalq səviyyədə aparılması olmuşdur. Adı çəkilən format "Universal Biblioqrafik Uçot Proqramı" əsasında formalaşdırılmışdır. Bu yeni yaradılan format "UNİMARC", yəni, "Universal MARC Formatı" adlandırıldı. Sonrakı dövrlərdə bu formatın əsasında CANMARC, USMARC və MARC -21, yəni "XXI əsrin formatı" adlı beynəlxalq səviyyəli axtarış formatları da meydana çıxmışdır ki, hətta müasir dövrümüzdə də istifadədə tətbiq olunur. Məsələn, Avropa ölkələri, ABŞ və Kanada biblioqrafik axtarış sistemi kimi MARC-21 formatı geniş istifadə olunur.

UNIMARC sistemində istənilən məlumat blokunun tərkibində yer alan başlıqlar yeni növ, forma və səviyyədə olan məlumatın çatdırılması məqsədilə proqrama daxil edilmişdir. Hər başlıq üçrəqəmli kodla fərqləndirilir və aid olduğu informasiya bloku ilə mövzuca səsləşir. Məsələn, sahə 500 5-ci "İntellektual məsuliyyət" blokuna aiddir və "ilkin intellektual məsuliyyət kimi şəxs adı"nı bildirir. Blokun tərkibindəki hər bölmə müvafiq kodu əks etdirən informasiyanı özündə ehtiva edir.

XX əsrin 70-ci illərində informasiya axtarışının təkmilləşdirilməsi məqsədilə OPAC (Online Public Access Catalogue), yəni "Onlayn ictimai giriş kataloqu" adlı elektron kataloq yaradıldı. OPAC proqramının əsasında yaradılmış NOTİS (Şimal-Qərb Universitetinin inteqral sistemi), CARL (Kolorado ştatı Elmi Kitabxanalar İttifaqının avtomatlaşdırılmış sistemi), LİAS (Pensilvaniya Universitetinin sistemi) formatları da istifadəyə tətbiq edildi.

Tədqiqat nəticəsində məlum olur ki, elektron kitabxanaların yaradılmasının yolu beynəlxalq təcrübəyə əsaslanmaqda əsaslı elmi-nəzəri, metodoloji və praktiki müddəaları ilə xarakterizə olunur. Dünyada sənəd massivinin ən əhəmiyyətli sahəsi hesab olunan nadir və qiymətli nəşrlərin də xüsusi elektron kitabxananın yaradılması mexanizminin işlənib hazırlanması XX əsrin ortalarından başlayaraq prioritet məsələyə çevrilmişdir.

Elektron kitabxanaların yaradılması, o cümlədən, nadir və qiymətli nəşrlərin elektron kitabxanalarının işlənməsi olduqca mürəkkəb texniki elmi bir problemdir. Bu proses böyük maddi vəsait və yüksək ixtisas sahibi olan kadrların bu işə cəlb edilməsi ilə

uğurla reallaşa bilər. Bu mexanizmin yaradılması və istifadəsi təşkilati, texniki, texnoloji və normativ hüquqi problemlər fonunda həyata keçirilir.

### *Ədəbiyyat*

1. Abbasova S. E. Elektron nəşr texnologiyaları // Rabitə dünyası. -2002, 19 yanvar, -s.3.
2. Allahverdiyev B.V. Texniki kitablarımızın bu günü və inkişaf perspektivləri // Bakı: “Kitablar aləmində” jurnalı, -1991, №3 (105), -s 2-7.
3. Allahverdiyev B.V. XX əsr Azərbaycan kitabşünaslığına nəzəri baxış // -Bakı: Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal. -2008, №1, -s 3-8.
4. Aslan K. Dünya kitabxanaları tarixi (XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək): Dərs vəsaiti / - K.Aslan. –Bakı: Bakı Universiteti Nəşriyyatı, -2010, 448c
5. Библиотечные каталоги: Учебник / Под редакцей П.И. Чижковой. -Москва: Книга, -1977, -303с.
6. Гениева Е.Ю. Библиотека как центр межкультурной коммуникации. -Минск: Бел.гос. ун-т культуры, -2002, -313с.
7. Гюлалыев Э.Г. Коллекция редких и ценных книг в центральной научной библиотеке Азербайджанской Национальной Академии Наук / Планирование, проведение и интерпретация результатов прогрессивных технологических изысканий, Сборник статей Международной научно-практической конференции, Аэтерна Научно-издательский центр, -Пенза, -2020, 1 июль, -с.18-24.
8. Столяров Ю.Н. Библиотечный фонд: Учебное пособие / -Москва: Книжная палата, -1991, -272с.
9. Соколов А. В. Общая теория социальной коммуникации / Учебное пособие, - Москва: СПб: Издательство Михайлова В. А., -2002, -461 с.
10. Butler B., Webster J., Watkins S. Resource sharing with an international library network : using technology and professional cooperation to bridge the waters // -İFLA journal, -2006, v. 32, No 3, -p. 189-199.

## ПРОЦЕСС СОЗДАНИЯ ЭЛЕКТРОННОГО КАТАЛОГА РЕДКИХ И ЦЕННЫХ КНИГ В XX ВЕКЕ

***Гулалиев Эльчин Гуламеддин оглы***

***Резюме***

С 50-х годов XX века уровень развития техники и технологий, которые стали развиваться во всем мире, носил интернациональный и массовый характер. Безусловно, важное место среди технических и технологических достижений занимает электронизация пространства библиотеки. В качестве первых работ в этом направлении были созданы проекты. Среди проектов по созданию электронной библиотеки в XX веке были проекты и программы, авторами которых является ряд европейских стран. Начиная с 60-х годов XX века на основе этих проектов в машинном формате создавались автоматизированные системы библиографического оформления. В результате исследования стало известно, что способ создания электронных библиотек характеризуется фундаментальными научно-теоретическими, методологическими и практическими факторами, основанными на международном опыте.

## THE PROCESS OF CREATION ELECTRONICAL CATALOGUES RARE AND VALUABLE BOOKS IN XX TH CENTURY

***Gulaliev Elchin Gulameddin***

***Summary***

Since the 50s of the 20th century, the level of development of technology and technology that began to develop throughout the world was of an international and mass nature. Of course, an important place among the technical and technological achievements is occupied by the electronization of the library space. Projects were created as the first works in this direction. Among the projects to create an electronic library in the twentieth century were projects and programs sponsored by a number of European countries. As a result of the study, it became known that the way of creating digital libraries is characterized by fundamental scientific, theoretical, methodological and practical factors based on international experience.